SİZDƏ COVID-19 VİRUSU AŞKAR EDİLİB? DƏSTƏYƏ EHTİYACINIZ VAR?

COVID-19 analizi verməliyəmmi?

- COVID-19 virusuna yoluxmuş biri ilə **təmasda olmusunuz**?
- Sizdə virusun **əlamətləri** var?
- Maine onlayn təlimatlarına baxın
  https://www.maine.gov/covid19/restartingmaine/keepmainehealthy/testing

Özünüzü qorumağı unutmayın! Maska taxın, sosial məsafəni qoruyun və əllərinizi yuyun və ya əl dezinfeksiyasından istifadə edin

Analiz verin!

- Test üçün təyin edilmiş yerdə və ya klinikada analiz verin
- Analizin nəticəsi bəlli olanadək izolyasiya edilməli və ya karantinə alınmalısınız
- Evdə qalmaq üçün dəstəyə ehtiyacınız olarsa, **Sosial Dəstək Xidmətləri üzrə İctimai Qayğı mərkəzinə** müraciət göndərin
- Test mərkəzi zəng və ya mesaj vasitəsilə nəticələrinizi sizə bildirəcək

Analizimin nəticəsi müsbət olarsa nə olacaq?

- Maine CDC sizə zəng edib aşağıdakıları soruşacaq:
  - **Harada** virusa yoluxmusunuz?
  - Sizdə virusun **əlamətləri** var?
  - Kiminlə **yaxın əlaqədə** olmusunuz?
- Onlar yaxın əlaqədə olduğunuz şəxslərə zəng edərək onlarda əlamətlərin olub-olmadığını, eləcə də karantin və ya izolyasiyaya ehtiyac olub-olmadığını öyrənəcək.
- Siz izolyasiya edilməlisiniz, Maine CDC müddəti sizə bildirəcək
- Onlar sizə **Sosial Dəstək Xidmətləri üzrə İctimai Qayğı** ilə əlaqə saxlamağa kömək edə bilər

Sosial Dəstək Xidmətləri üzrə İctimai Qayğı

Siz **icma rəhbəriniz, həkim, səhiyyə işçisi, sosial işçi, məktəb həmşirəsi**VƏ YA**Maine CDC** bölməsindən izolyasiya və ya karantinlə bağlı dəstək ala bilərsiniz.

DHHS.covidsocialsupport@maine.gov ünvanı və ya onlayn formaya (https://www.maine.gov/dhhs/form/covid-19-referral-form) istinad edin

Department of Health and Human Services

Helping People. Changing Lives. MeCAP Maine Community Action Partnership

Catholic Charities

MAINE IMMIGRANTS' RIGHTS COALITION

COVID-19 SOSİAL DƏSTƏK XİDMƏTLƏRİ üzrə İCTİMAİ QAYĞI

İctimai Qayğı və Sosial Dəstək nədir?

İctimai Qayğı və Sosial Dəstək karantin və ya izolyasiya ilə bağlı köməyə ehtiyacı olan hər kəs üçün mövcud olan xidmətlərdir. Xidmətlər yerli icma təşkilatları tərəfindən təmin edilir və aşağıdakılardan ibarədir:

- Qida (ərzaq/isti yeməklər/qida çatdırılması)
- Mədəni vasitəçilik və dil xidmətləri
- Sağlamlığın qorunması və tibbi yardımlar
- Analiz mərkəzlərinə, tibb ocaqlarına və sığınacaqlara daşınma
- Təchizat və dərmanların götürülməsi
- Əqli sağlamlıq xidmətləri
- İzolyasiya və ya karantin zamanı təhlükəsiz yerləşmə/sığınacaq
- Daha çox dəstək xidmətləri ilə əlaqə

Mən nə zaman dəstək ala bilərəm?

- Sizdə COVID-19 **əlamətləri** olduqda VƏ YA
- Analizinizin cavabını **gözlədikdə**VƏ YA
- **COVID-19** analizinin cavabı **müsbət** olduqda VƏ YA
- COVID-19 virusuna yoluxmuş şəxslə **yaxın əlaqədə** olduğunuzda

Bu xidmətlərdən necə yararlana bilərəm?

- **İcma rəhbəriniz, həkim, tibb işçisi, sosial işçi, məktəb həmşirəsiVƏ YAMaine CDC** bölməsi sizi dəstək üçün yönləndirə bilər
- Sizin razılığınızla onlar **DHHS.covidsocialsupports@maine.gov** e-poçt ünvanına yazmaqla və ya **bu onlayn formanı** (https://www.maine.gov/dhhs/form/covid-19-referral-form) doldurmaqla müraciət edə bilərlər

DHHS.covidsocialsupport@maine.gov ünvanı və ya onlayn formaya (https://www.maine.gov/dhhs/form/covid-19-referral-form) istinad edin

Department of Health and Human Services

Helping People. Changing Lives. MeCAP Maine Community Action Partnership

Catholic Charities

MAINE IMMIGRANTS' RIGHTS COALITION